# Filarmoniyada "Musiqi körpüsü" adlı konsert proqramı təqdim edilib

**M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsində "Musiqi körpüsü" (ABŞ - Azərbaycan) adlı konsert proqramı təqdim edilib.**

Əvvəlcə Azərbaycan-Amerika Musiqi Fondunun təsisçisi və sədri, tanınmış orqan ifaçısı Cəmilə Cavadova-Spitsberq "Musiqi körpüsü" layihəsi haqda tamaşaçılara ətraflı məlumat verib.

Sonra tanınmış dirijor Fərhad Xudiyevin rəhbərliyi ilə Üzeyir bəy Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri dinləyicilərin qarşısında zəngin proqramla çıxış edib. Proqramda G.Chadwick "Simfonik eskizlər"dən "Jubilee", Q.Qarayev "İldırımlı yollarla" baletindən 2 saylı Süita, A.Copland "Rodeo" baletindən "Hoe - Down" və P.İ.Çaykovskinin "Romeo və Cülyetta" uvertyura - fantaziyası səslənib.

Qeyd edək ki, istedadlı azərbaycanlı dirijor Farhad Xudiyev ABŞ, Almaniya, Danimarka, Tayvanda beynəlxalq müsabiqələrinin qalibi olub. F.Xudiyev ABŞ-nin ən yaxşı 5 dirijorundan biri seçilib. Hazırda Texas Universiteti simfonik orkestrinin musiqi direktorudur.



Azərbaycan.- 2024.- 16 aprel, № 75.- S.11.